**UOT 75**

**Sənan Ağayev**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyası**
**doktorant**
**E-mail: phd.sananaghayev@gmail.com**

# BƏDİİ İFADƏ VASİTƏSİ KİMİ RƏNG VƏ AĞA MEHDİYEVİN RƏNGKARLIĞINDA KOLORİT

**Xülasə:** Ən qədim zamanlardan incəsənət insanların ətraflarında baş verən proseslərə münasibət bildirərkən istifadə etdikləri xüsusi dil olmuşdur. Təsviri incəsənətin başlıca növlərindən olan rəngkarlıqda əsas ifadə vasitəsi rəngdir. Rəngi təkcə forma olaraq dəyərləndirmək olmaz, çünki hər bir rəng ayrıca simvolik mənaya və psixoloji təsir gücünə malikdir. Rəngin bu xüsusiyyətlərinə dərindən bələd olan sənətkarlar cazibədar tablolar yaratmağa nail ola biliblər. Azərbaycanın Xalq rəssamı Ağa Mehdiyev də belə rəssamlardan biri olmuşdur. Milli rəngkarlıq məktəbi ənənələrindən faydalanan rəssamın əsərləri isti və soyuq tonların kəskin keçidləri və fərqli tonların ahəngdar təqdimatı ilə seçilir.

**Açar sözlər:** Ağa Mehdiyev, təsviri sənət, rəngkarlıq, rəng, mənzərə, natürmort, milli ənənələr, kolorit.

XX əsr Azərbaycan rəngkarlıq sənətinin görkəmli nümayəndəsi, Xalq rəssamı Ağa Mehdiyev rənglərin dərin bilicisi kimi çıxış etmiş, tablolarında təsvir etdiyi hadisə və predmetləri kolorit seçimi sayəsində daha da ön plana çıxara bilmişdir. Zəngin və çoxşaxəli yaradıcılıq yolu izləyən, araşdırmaçı rəssam olan sənətkar tarixi milli rəngkarlıq sənəti ənənələrimizə əsaslanaraq özünəməxsus üslub formalaşdırmışdır. Məqalədə təsviri sənət növləri içərisində rəngkarlığın yeri və təsviri incəsənətdə əsas ifadə vasitələrindən biri kimi rəngin rolu məsələlərinə toxunulmuş, eyni zamanda, Ağa Mehdiyevin tablolarında rəngin emosional və simvolik keyfiyyətlərindən istifadəsi araşdırılmışdır.

Hələ ən qədim zamanlarda insanlar ətraf mühiti müşahidələri nəticəsində əldə etdikləri bilik və təcrübələri müxtəlif üsullarla əks etdirməyə çalışmışlar. Bu üsullardan mövzumuzla birbaşa əlaqəsi olan, insanlıq tarixinin "tərcümeyi-halı"na çevrilmiş incəsənət zamanla ulu babalarımız üçün əvəzedilməz bir vasitə halına gəlmişdir. Müxtəlif zamanlarda dünyamızın fərqli nöqtələrində ayrı-ayrı adət və ənənələrə, dünyagörüşünə malik olaraq formalaşan xalqların özünəməxsus dilləri olmasına baxmayaraq, incəsənət zamanla bütün insanlıq tarixi üçün ortaq bir dilə çevrilmiş, qollanıb budaqlanaraq xalqların kimliyi, millətlərin varlığı üçün bir isbat halına gəlmişdir. Təsadüfi deyil ki, dövrümüzdə belə sənət və

yaradıcılıqla məşğul olan insanların fikirlərini ifadə etdikləri vasitə kimi "sənət dili" adlanan məcazi anlayışdan istifadə olunur. Çünki bu dilin öz sözləri və cümlələri var, daxilində ayrıca bir sistemə, xüsusi lüğət tərkibinə malikdir, özündə digər dillərdən və əlifbalardan tamamilə ayrı olan, özünəməxsus və unikal bilik və anlayışları birləşdirir.

İncəsənətin xüsusi növü kimi təsviri sənətin öz ifadə vasitələri vardır. Əsas ifadə vasitəsi kimi rəngin baş rolda olduğu rəngkarlıq sənəti antik dövrlərdə ilkin dini inanclara bağlı olaraq ibtidai şəkildə formalaşmağa başlamış, tarixin irəliləyən dövrlərində öz daxilində böyük təkamül keçirmiş və bir təsviri sənət növü kimi ali zirvəyə yüksəlmişdir. Bu alilik cəmiyyətin, sosial münasibətlərin və siyasi strukturların məruz qaldığı dəyişikliklərin ilk növbədə sənətdə və bilavasitə rəngkarlıqda əks olunması ilə özünü göstərir.

Rəng – işığın quruluşundan və cisimlər üzərində yayılmasından asılı olaraq gözə etdiyi təsirdir. Bu təsir insanın təkcə, görərək seçmə və fərqləndirmə bacarığı ilə məhdudlaşmır, eyni zamanda rənglərin ayrı-ayrı şüuraltı psixoloji təsirləri də vardır. Məhz bu səbəbdəndir ki, rənglər bütün zamanlarda insanların həyatında xüsusi rola malik, simvolik əhəmiyyətli olmuşdur. Dünyanın bir çox yerində aparılmış arxeoloji araşdırmalar nəticəsində əldə edilmiş qəbir abidələrindən tutmuş, aşkarlanmış ən qədim zamanlara aid mağara rəsmlərinə qədər hər yerdə rast gəlinən dəlillər insanların rəngə hansı mənaları yükləməsini və mənaların onlar üçün həyati əhəmiyyətə malik olmasını sübut edir. Məsələn, Azərbaycan ərazisində aşkarlanmış kurqan və katakomba qəbirlərindən qırmızı parça qalıqlarının aşkarlanması, meyitlərin qırmızı oxra ilə boyandığını göstərən izlər qırmızı rəngin əcdadlarımız üçün axirəti təmsil edən özəl bir rəng olmasını göstərir. Zamanla bu rəngin aldığı simvolik məna sinifli cəmiyyətə daşınmışdır. Nəsir Rzayev öz qeydlərində XX əsrdə sadəcə zadəganların, yuxarı təbəqə zənginlərinin geyimlərində qırmızı rəngdən istifadə edilə bildiyini qeyd edir. Düşünmək olar ki, bunun səbəbi bir zamanlar qırmızı parçanın bahalı və kasıblar üçün əlçatmaz olması idisə, sonralar bu artıq simvolik hal almışdı.

Azərbaycan rəngkarlıq məktəbi rəngin zəngin informativ mahiyyətindən və simvolikasından məharətlə istifadə edən çoxsaylı böyük sənətkarlar yetişdirmişdir. Bunun əsas səbəbi kimi milli rəngkarlıq məktəbimizin söykəndiyi tarixi ənənələri vurğulamaq lazımdır. Bu gün artıq formalaşmış olan incəsənət məktəbinin Orta əsrlərin miniatür sənəti ənənələrinə, xüsusilə, Təbriz miniatür məktəbinə borclu olduğunu qeyd etsək, şişirtmiş olmarıq. Çünki, məhz Təbriz sənətkarları ifadə vasitəsi kimi fəza dərinliyi illüziyası yaradan işıq və kölgə oyunlarından istifadə etmirdilər, onlar rənglərin psixoloji və simvolik mənalarından istifadə edə biləcək qədər kamil sənətkarlar idilər.

Rəngkarlıq sənətimizdə Xalq rəssamı Ağa Mehdiyev öz dəst-xətti və ifadə tərzi etibarilə birbaşa tarixi milli rəngkarlıq məktəbi ənənələrimizə əsaslanan sənətkarlardan olmuşdur. Yaradıcılığının erkən dövrlərində ali rəngkarlıq təhsilini yenicə bitirmiş və sənətdə ilk addımlarını atan rəssam akademik təhsilin ona qazandırdığı üslubda tablolar yaradırdı. Sonradan rəssamın aparmış olduğu çoxsaylı müşahidələr, əldə etdiyi biliklər və yeniliyə meylli xarakteri Ağa Mehdiyevi öz yaradıcılığında yetkin mərhələ adlandıra biləcəyimiz bir dövrə gətirib çıxarmış və özünəməxsus təqdimat şəklinə yiyələnməsinə səbəb olmuşdur. Ağa Mehdiyevin təqdimatının fərqli cəhəti kimi nə qədər məkan yanlışlığından imtina etməsi və dekorativlik ön plana çıxsa da, əslində bunlar qədər spesifik olan daha bir cəhət onun seçdiyi rənglər və keçidlərdir. Yaradıcılığının yetkin dövrünə aid olan, çoxsaylı personaj və ya elementlərdən istifadə edilməyən ən sadə mənzərə və ya natürmortlarına nəzər saldıqda belə rəssamın rəng haqqında bilikləri və palitra seçimində yetkinliyi aydın görünür. Məsələn, natürmort janrında kətan üzərinə yağlı boya texnikasıyla yaradılmış “Günəşli gün” tablosunu qeyd etmək olar. Əsərdə qızmar yay günlərinin birində pəncərə kənarına qoyulmuş güldanda bir neçə ədəd qırmızı çiçək təsvir olunmuşdur. Hər nə qədər əsərdə ön planda kiçik bir element olsa da arxa fonun quruluşu və rəng qamması tablonun məntiqi özəyini təşkil edir və ön planda olan təsvir elementi qabarıqlaşdırılır. Güldanın arxa fonunda pəncərədən açılan kiçik məhəllə mənzərəsi təsvir olunub. Məhəllə evlərinin damlarını və divarlarını isti tonlar olan sarı və narıncı rəngdə təsvir edən sənətkar, bununla qırmızı rəngdə olan gülün ləçəkləri ilə ahəngdarlıq yaratmışdır. Pəncərənin kənar haşiyələri və evlərin kölgələrini soyuq tonlar olan yaşıl və mavi təsvir edən rəssam, burada da mavi səma ilə gözəl və cəzbedici bir uyğunluq naümayiş etdirir. Lakin əsas cəhət tabloda isti tonlardan soyuq tonlara və ya əksinə olan keçidlərin kəskinliyidir. Bu qədər kəskin keçidlər olması tablonun emosional təsir gücünü də artırır, eyni zamanda Ağa Mehdiyevin məharəti sayəsində bu qədər kəskin keçidlər olmasına baxmayaraq, əsərin daxili tarazlığı və sakitliyi də qorunub.

Eyni cəhətlərlə rəssamın “Dağlar” və “Qızmar gün” adlı mənzərələrində də qarşılaşırıq. “Dağlar” əsərinin daxili təsir gücü əyri və dolaşıq xətlərin köməyilə möhkəmlənmişdir. Dağların mənzərənin dərinliyi boyunca kətan üzərində “rəqs edən” eniş və yoxuşları rəssam tərəfindən narıncı rəngdə təqdim olunan torpaq və tünd mavi tonlarında olan kölgələrinin yerdəyişməsi ilə təsvir olunmuşdur. İsti və soyuq tonların bu şəkildə növbələşməsinə uzaqlardan görünən mavinin açıq tonlarında səma və narıncının xüsusi tonunda buludlarla yekun vurulub. Oxşar xüsusiyyətlər bir qədər dəyişik formada “Qızmar gün” tablosunda vardır. Mavi səmada süzən bəyaz buludlar fonunda təsvir olunan kəndin küçə və evləri palitranın isti tonları sayəsində daha da qabarıq və ön planda görünür.

Ağa Mehdiyevin yaradıcılığına ümumi baxdıqda əksər hallarda ön plana palitranın isti tonlarının çıxdığını, soyuq tonların bir növ fon kimi istifadə olunduğunu görürük. Lakin ayrı-ayrı əsərlərində rəssam soyuq tonları da əsas mövqeyə gətirmişdir. Belə əsərlərdən biri "Mavi gün" adlanır. Adından göründüyü kimi əsər yay fəslinin işıqlı, açıq, gözoxşayan günlərindən birini təsvir edir. Eyvandan şəhərə açılan mənzərəni sadə dillə təsvir etməyə üstünlük verən sənətkar az sayda elementlər seçməsinə baxmayaraq, bu elementlərlə dolğun bir iş ortaya çıxarmışdır. Bütünlükdə soyuq tonların hakim olduğu rəng qamması melodik keçidlərlə göz oxşayır. Açıq səmada süzən bir topa bulud forması artıq Ağa Mehdiyevin spesifik elementi kimi görünür, o dərəcədə ki, sadəcə, bu buludun quruluşu müəllif üçün imza xarakterli sayıla bilər.

Araşdırma əsnasında izlənilən yoldan və qeyd edilən fikirlərdən bu nəticəyə gəlirik ki, incəsənətin dili bütün başqa dillərdən fərqli olaraq, bir millət və ya qövm üçün xüsusi deyil, bütövlükdə insan cəmiyyəti üçün ümumi və universal bir dildir. Təsviri sənətin xüsusi növü olan rəngkarlıqda başlıca ifadə vasitəsi kimi çıxış edən rəng simvolik mənalara və emosional təsir gücünə malikdir. Azərbaycanın Xalq rəssamı Ağa Mehdiyev rəngin fiziki, psixoloji və simvolik xarakterinə dərindən bələd olmuş, özünəməxsus forma və təqdimata malik olan tablolarını yaradarkən rəng biliklərinə söykənmiş və əvəzolunmaz rəngkarlıq əsərləri ərsəyə gətirməyə nail olmuşdur.

**Ədəbiyyat siyahısı**:


1. Ağayev S.Ə. Ağa Mehdiyevin yaradıcılığında portret janrı // Bakı: Mədəniyyət Dünyası – elmi nəzəri məcmuə. – 2018. №36. – s. 93-96.
2. Azərbaycan sovet təsviri incəsənəti oçerkləri / N.Həbibov, N.Hacıyev, N. Miklaşevskaya [və b.] – Bakı: Azərbaycan SSR Elmlər Akademiyası nəşriyyatı, - 1960.
3. Batur M. Huzurun rengi mavi // İnönü Üniversitesi: Sanat ve Tasarım Dergisi. 2016. №13. – s. 279-292
4. Əzimova K. Rənglərdən ilham alan sənətkar // Mədəniyyət, 2020, 19 mart, s.6.
5. Quliyev Ə. Milli ruhlu rəssam // Mədəniyyət, 2015, 16 dekabr, s.15.
6. Litvin M.D. İzomaterial: Ağa Mehdiyev // Bakı: İşıq, - 1990, - 104 s.
7. Nəcəf M.N. Azərbaycan SSR-nin incəsənəti / M.N.Nəcəf, - Leninqrad: Aurora Art Publishers, - 1972. – 30 s. + ill.
8. Per M. Resim sanatında rengin tarihsel süreçte incelenmesi // İnönü Üniversitesi sanat ve tasarım dergisi. – 2012. №4. s. 103-119.
9. Soltanlı S. Sadə və isti rənglər ustası // Mədəniyyət, 2015, 2 oktyabr, s.15.

10. Sözen M. Sanat kavram ve terimleri sözlüğü / M. Sözen, U. Tanyeli. –İstanbul: Remzi Yayınevi, - 1992, - 360 s.
11. Vəliyev K. Təbiət və həyat rənglərin ecazkar aləmində // Mədəniyyət,2014, 6 avqust, s. 12.

**Санан АгаевЦВЕТ КАК СРЕДСТВО ХУДОЖЕСТВЕННОГО ВЫРАЖЕНИЯИ КОЛОРИТ В ЖИВОПИСИ АГИ МЕХДИЕВА**

**Резюме:** С незапамятных времен искусство было особым языком, на котором люди выражали свою реакцию на процессы, происходящие вокруг них. Одна из основных форм изобразительного искусства в живописи - цвет. Цвет не следует рассматривать как простую форму, так как каждый цвет имеет свое символическое значение и психологическое воздействие. Глубоко осознавая эти особенности цвета, художники сумели создать при-влекательные картины. Народный артист Азербайджана Ага Мехдиев был одним из таких художников. Работы художника, опирающиеся на тради- ции национальной живописной школы, отличаются резкими переходами теплых и холодных тонов, гармоничной передачей разных оттенков.

**Ключевые слова:** Ага Мехтиев, изобразительное искусство, живо- пись, цвет, пейзаж, натюрморт, национальные традиции, колорит.

**Sanan AghayevCOLOR AS A MEANS OF ARTISTIC EXPRESSION ANDCOLORITION IN AGA MEHDIYEV'S PAINTING**

**Summary:** From ancient times art has been a special language used by people to express their reactions to the processes taking place around them. Coloris one of the main forms of expression in painting. Color should not be considered as a type of form, because each color has its own symbolic meaningand psychological impact. Deeply aware of these features of color, artists havemanaged to create attractive paintings. People's Artist of Azerbaijan Aga Mehdiyev was one of such artists. Benefiting from the traditions of the nationalschool of painting, the artist's works are distinguished by sharp transitions ofwarm and cool tones and harmonious presentation of different tones.

**Key words:** Aga Mehdiyev, fine arts, painting, color, landscape, still life,national traditions, color.

**Məqalənin redaksiyaya daxil olma tarixi: 31. 10. 2021**
**Məqaləni çapa tövsiyə edən sahə redaktorunun (və ya üzvünün) adı: sənət-şünaslıq üzrə fəlsəfə doktoru, dosent Aslan Xəlilov**